8.qxd 28.02.2010 15:34 Page 1

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ KOLLECİNİN 90 İLLİK YUBİLEYİ QEYD OLUNMUŞDUR

AzərTAc-dan verilən məlumata görə, noyabrın 18-də «Gülüstan» sarayında Azərbaycan Dövlət Pedaqoji Kollecinin 90 illik yubileyi qeyd edilmişdir. Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anmış, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər düzülmüşdür. Yubiley tədbirində Milli Məclisin deputatları, nazirlik və dövlət komitələrinin nümayəndələri, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri iştirak etmişlər.

Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlanan tədbirdə pedaqoji kollecin 90 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilmişdir.

Təhsil naziri Misir Mərdanov ölkəmizdə təhsilin inkişafı üçün hərtərəfli şərait yaradıldığını vurğulayaraq demişdir ki, son illər respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişafyönümlü proqram və layihələrin həyata keçirilməsi dövlətimizin başçısının bu sahəyə müntəzəm diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Bu yaxınlarda Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Kollecinin bir qrup müəlliminə ölkədə təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar Müəllim" fəxri adının verilməsi və "Tərəqqi" medalı ilə təltif edilməsi bu qayğının bariz nümunəsidir. Bu addım məktəbin və müəllimin statusunun yüksəldilməsinə yönəlmişdir.

Nazir fəxri adların vəsiqə və medallarını sahiblərinə təqdim etmişdir.

Bildirilmişdir ki, görkəmli Azərbaycan ziyalıları H.Cavid, Ü.Hacıbəyli, A.Şaiq, S.M.Qənizadə, C.Cəbrayılbəyli, M.Qiyasbəyli, Ə.Sumbatzadə, M.Təhmasib, M.Dilbazi, C.Novruz, Ə.Cəfərzadə və onlarla digər tanınmış şəxslərin həyatı, ilkin peşə-ixtisas təhsili, pedaqoji fəaliyyəti uzun illər dahi M.Ə.Sabirin adı ilə məşhurlaşmış bu məktəblə bağlı olmuşdur. Zəngin ənənələrə əsaslanan Azərbaycan Dövlət Pedaqoji Kolleci 90 illik fəaliyyəti dövründə yeniləşərək ölkə təhsilinin müasir inkişaf mərhələsində özünəməxsus yer tutur.

Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor Nurlana Əliyeva "Ömürlərdə izi qalmış təhsil ocağı" mövzusunda məruzə ilə çıxış etmişdir.

Natıq demişdir ki, kollecimizin mövcud olduğu 90 ildə ölkəmiz böyük inkişaf yolu keçmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərindən bəri cəmiyyət həyatının bütün sahələrində gedən yeniləşmənin, tərəqqinin və bütün bunların nəticəsi kimi əldə olunan böyük uğurların sayəsində bu gün Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın ən irəlidə gedən ölkələrindən birinə, regionun ən nüfuzlu dövlətinə çevrilmişdir. Hər cür inkişafın və tərəqqinin təməlində məhz təhsilin dayandığını nəzərə alsaq, ölkəmizin indiki şərəfli, fərəhli durumunda hər bir təhsil işçisi kimi azacıq da payımızın olması bizi sevindirir və böyük ədibimiz Hüseyn Cavidin dediyi kimi, cahan sərgisinə verdiyimiz bir çiçəyə görə özümüzü bəxtiyar sayırıq.

Azərbaycan Dövlət Pedaqoji Kolleci orta ixtisas təhsili şəbəkəsində mütəxəssis hazırlığındakı dəst-xəttinə görə nadir bir təhsil ocağıdır. Kollecimizin Vətənimiz, xalqımız, təhsilimiz qarşısındakı xidmətlərini çox yüksək qiymətləndirən müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndərimiz Heydər Əliyevin 80 illik yubiley münasibətilə təhsil ocağımızın kollektivinə ünvanladığı təbrik məktubunda deyilir: "Azərbaycan Dövlət Pedaqoji Kolleci respublikanın maarif ocaqlarını yüksək səviyyəli pedaqoji kadrlarla təmin etmək sahəsindəki uzunillik fəaliyyəti ilə Azərbaycan təhsilinin inkişafında misilsiz xidmətlər göstərmişdir". Bu cümlədə ehtiva olunan böyük həqiqət məktəbimizin keçdiyi uzun tarixi bir yolu nəzərlərimizdə canlandırır.

Bildirilmişdir ki, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təhsilimizin, mədəniyyətimizin inkişafı, tərəqqisi naminə həyata keçirdiyi misilsiz layihələr, indiyədək miqyası görünməmiş məktəb quruculuğu işləri ölkədə böyük bir hərəkata çevrilmişdir.

Nurlana Əliyeva demişdir ki, dövlətimizin qayğısı sayəsində 2 il əvvəl kollecimiz üçün çoxdan gözlədiyimiz yeni tədris korpusu tikilərək istifadəyə verilmişdir. Ötən il isə kollecin binası əsaslı təmir olunmuşdur. Nəticədə auditoriyalar, laboratoriyalar, kitabxana, akt zalı və digər yardımçı otaqlar ən müasir standartlara cavab verən səviyyəyə çatdırılmışdır. Yeni tikilən tədris korpusu müasir avadanlıqla təmin olunmuş, mövcud avadanlığın böyük bir qismi yeniləri ilə əvəzlənmişdir.

Tədbirdə istedadlı uşaqlar şeirlər söyləmiş və rəqs ifa etmişlər.

Tədbirdə Yeni Azərbaycan Partiyası sədrinin müavini-icraçı katib, Milli Məclisin deputatı Əli Əhmədov, deputatlar Abel Məhərrəmov, Şəmsəddin Hacıyev, Hadi Rəcəbli, Yasamal rayon İcra hakimiyyətinin başçısı İbrahim Mehdiyev, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev, Respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayev və başqaları yubiley münasibətilə kollecin kollektivini təbrik etmiş və xatirə hədiyyələri təqdim etmişlər.

Yubiley mərasimi pedaqoji kollec tələbələrinin "Zəkanın nurunda" adlı ədəbi-bədii proqramı ilə davam etdirilmişdir.

İlahə Tahirqızı

Uşaq hüquqları Konvensiyasının 20 illiyinə həsr edilmiş tədbir

Ombudsman Aparatının Mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili və BMT İctimai İnformasiya Departamentinin (UNDPİ) Azərbaycan nümayəndəliyi "Atatürk" mərkəzində Uşaq Hüquqları Konvensiyasının 20 illiyinə həsr edilmiş birgə dəyirmi masa keçirmişlər.

Tədbirin açılış mərasimində Ombudsman Elmira Süleymanova və UNDPİ Azərbaycan nümayəndəliyinin rəhbəri Envera Selimoviç iştirakçıları adıçəkilən konvensiyanın əlamətdar ildönümü münasibətilə təbrik etmiş, tədbirin məqsəd və məramı barədə məlumat vermişlər.

Müvəkkil insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarının xüsusi diqqətə və müdafiəyə ehtiyacı olduğu nəzərə alınaraq, 1959-cu ildə BMT-nin Uşaq Hüquqları Bəyannaməsinin, 20 noyabr 1989-cu ildə isə BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edildiyini söyləmişdir. O, bu konvensiyanın uşaq hüquqları sahəsində qəbul edilmiş digər sənədlərlə müqayisədə ən dolğun sənəd olduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, iştirakçı dövlətlərin sayına görə bu, BMT-nin ən çox ratifikasiya edilmiş konvensiyasıdır və bütün dünya dövlətləri (ABŞ və Somali istisna olmaqla) Uşaq hüquqları Konvensiyasını ratifikasiya etmişdir. Bu fakt uşaq hüquqlarının müdafiəsinə dünya ictimaiyyətinin yüksək əhəmiyyət verməsinin sübutudur.

Ombudsman uşaq hüquqlarının müdafiəsinin ölkəmizin dövlət siyasətinin əsas prioritetlərindən olduğunu, ölkəmizin hələ 1992-ci ildə Uşaq Hüquqları Konvensiyasını ratifikasiya etdiyini, bundan sonra bir sıra beynəlxalq sənədlərə, o cümlədən Təhsildə ayrı-seçkiliyin aradan qaldırılması üzrə BMT-nin Konvensiyasına qoşulduğunu diqqətə çatdırmışdır. 1998-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının «Uşaq Hüquqları haqqında» Qanununun milli qanunvericiliyin bu sahədə qəbul edilmiş beynəlxalq standartlara uyğunlaşdırılması yolunda atılmış addımlardan olduğu vurğulanmışdır.

Ombudsmanın fəaliyyətinin ilk günlərindən uşaq hüquqlarının müdafiəsinə və təbliğinə də böyük diqqət yetirildiyi qeyd olunmuşdur. E.Süleymanova beynəlxalq təşkilatlarla, BMT və bu qurumun struktur bölmələri insan hüquqları, o cümlədən uşaq hüquqları sahəsində sıx əməkdaşlıq əlaqələri yaradıldığını söyləmişdir. Müvəkkilin uşaq hüquqları üzrə ixtisaslaşmış müşavirinin fəaliyyət göstərdiyi, həmçinin regional mərkəzlərin rəhbərlərinin müvafiq bölgələrdə Ombudsmanın uşaq hüquqları üzrə müşavirləri təyin olunduğu qeyd edilmişdir.

Ombudsmanın Uşaqların cinsi istismar və sui-istifadədən müdafiəsinə dair Avropa Şurası Konvensiyasının ölkəmiz tərəfindən ratifikasiya edilməsini, "Uşaqların cismani cəzadan müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunmasını təklif etdiyi diqqətə çatdırılmışdır.

Ölkə Prezidentinin Sərəncamı ilə elan olunmuş Uşaq ili və BMT-nin Uşaq Hüquqları Konvensiyasının 20 illiyi ilə əlaqədar olaraq Müvəkkilin təşəbbüsü ilə 20 oktyabr – 20 noyabr 2009-cu il tarixlərini əhatə edən "Uşaqları dinləyək, onların iştirakını təmin edək" devizi altında Uşaq hüquqları aylığının keçirildiyi, bu aylıq ərzində ölkənin şəhər və rayonlarında Ombudsman Aparatının və Müvəkkilin regional mərkəzlərinin əməkdaşlarının dəyirmi masalar, treninq-seminarlar, uşaq hüquqları üzrə bir sıra maarifləndirmə tədbirləri təşkil etdiyi bildirilmişdir.

Müvəkkil dövlət qurumları, rayon icra hakimiyyətləri, bələdiyyələr və uşaqlar arasında ötən 20 ildə görülən işlər və gələcək 20 il üçün arzu olunan tədbirlərin müəyyənləşdirilməsi məqsədilə sorğular keçirmiş və səlahiyyətli qurumlara müvafiq tövsiyələrin göndərilməsi üçün nəticələr ümumiləşdirilmişdir.

"Uşaq hüquqları hamı üçün" mövzusunda jurnalist yazıları və "Bizim hüquqlarımız" mövzusunda uşaq rəsmləri müsabiqələrinin bu aylığın mühüm tədbirlərindən olduğu nəzərə çatdırılmışdır.

Respublikamızın şəhər və rayonlarında, kənd yerlərində yaşayan uşaqların, həmçinin qaçqın və məcburi köçkün, imkansız, ailə himayəsindən məhrum olmuş, uşaq müəssisələrində tərbiyə alan, habelə baxımsız olan, zorakılığa məruz qalan və digər hüququ pozulmuş uşaqların problemləri ilə bağlı Müvəkkilə dərhal müraciət etmək məqsədilə Ombudsman təsisatında «916» nömrəli qaynar xəttin yaradıldığı və 24 saat ərzində fəaliyyət göstərdiyi bildirilmişdir.

E.Selimoviç 54 paraqraf və 2 əlavə Protokoldan ibarət olan Konvensiyanın 18 yaşına çatmamış uşaqların əsas hüquqlarını ifadə etdiyini, hər bir hüququn ayrılmaz və birbirinə bağlı olduğunu vurğulamışdır. Adı çəkilən konvensiyanın üzv dövlətlər qarşısında uşaq hüquqları ilə bağlı öhdəliklər irəli sürən ilk hüquqi sənəd olduğu diqqətə çatdırılmışdır. O, Müvəkkilin insan hüquqları, o cümlədən uşaq hüquqları sahəsində çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirmiş, Ombudsman təsisatı ilə təmsil etdiyi qurumun səmərəli əməkdaşlıq əlaqələrini qeyd etmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova respublikamızda uşaq hüquqlarının müdafiəsi, keyfiyyətli təhsil, tibbi xidmət, uşaqların təlimtərbiyəsinin yaxşılaşdırılması istiqamətində mühüm işlərin görüldüyünü, Azərbaycanda Uşaq ili çərçivəsində bu sahədə davamlı tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmış, təmsil etdiyi qurumun bu il çərçivəsində fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

YUNİSEF-in Bakı ofisinin əməkdaşı Munir Məmmədov təmsil etdiyi qurumun fəaliyyəti, Azərbaycan Ombudsman təsisatı ilə əməkdaşlığı nəzərə çatdırmışdır. O, YUNİSEF-ə üzv ölkələrin üzərinə düşən əsas vəzifənin uşaq hüquqlarının müdafiəsi istiqamətində mükəmməl baza yaratmaqdan ibarət olduğunu söyləmiş, əlil, kimsəsiz, valideyn himayəsindən məhrum olan, istismara məruz qalan uşaqların hüquqlarının təmini ilə bağlı müdafiə sistemləri yaradılmasının zəruriliyini diqqətə çatdırmışdır.

Azərbaycan QHT Alyansının milli koordinatoru Nabil Seyidov, AMEA-nın müxbir üzvü, professor Vaqif Abbasov, "Xoş niyyət" Xeyriyyə İctimai Birliyinin rəhbəri Minirə Qarayeva və başqaları müzakirə olunan məsələ ilə bağlı mülahizələrini söyləmişlər.

İştirakçılar – dövlət qurumları, QHT-lər və beynəlxalq təşkilatların nümayəndələri dəyirmi masaya qatılmış Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin üzvlərinin, habelə Bakını və respublikamızın rayonlarını təmsil edən məktəblilərin Uşaq hüquqları ilə bağlı suallarını cavablandırmış, bu mövzuda interaktiv müzakirələr aparılmışdır.

Tədbirin sonunda Ombudsmanın təşəbbüsü və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Azərbaycan nümayəndəliyinin dəstəyi ilə keçirdiyi "Uşaq hüquqları hamı üçün" mövzusunda jurnalist yazıları və "Bizim hüquqlarımız" mövzusunda uşaq rəsmləri müsabiqələri qaliblərinin adları açıqlanmışdır. Flora Xəlilzadə ("Azərbaycan" qəzeti) və Nazim Hüseynli ("525-ci qəzet") I yer, Sürəyya Rəhimova ("Savalan" qəzeti) və Bəxtiyar Bəndalıyev ("Mingəçevir işıqları" qəzeti) II yer, Əfsun Sucayev ("Gəncəbasar" qəzeti) və Vüqar Haqverdiyev ("Elm" qəzeti) III yerə layiq görülmüş, pul mükafatları və sertifikatlar almışlar.

I, II və III yerləri tutan, Bakının müxtəlif rayonlarını və respublikamızın 12 rayonunu təmsil edən 29 məktəbliyə pul mükafatları və sertifikatlar təqdim edilmiş, 20 məktəbli isə həvəsləndirici yerə layiq görülmüşdür.

Ali-Əli

Ya Əli, adının olum fədası,
Yığıb cəm elədin Qüdsü-Quranı.
Budur Peyğəmbərin ərzi-kəlami,
Özü şəhri-elm, sən onun qapısı.

Ümmətin Mövlası, Şiri-Xudası,
Ey mənim gözümün nuri, ziyası,
Hər gün dönə-dönə təkrar edirəm,
Cəmi möminlərin Sənsən ağası.

Lazımdır hər kəsin agah olması,
Əli haqq ilədir, haqq onunladır.
Vallah kim ki, bunu inkar eyləsə,
Ona Peyğəmbərin olmaz şəfası.

Məqamın böyükdür, ey ali-Əli,
Varmı elə bir şəxs sənə çatası?
Yaradana xatir hifs eylə məni,
Ey iki gözəlin gözəl atası.

Qəlbimdə qalan arzum

Ən böyük arzumu soruşsaydılar,
Deyərdim, qəlbimdə bircə arzum var.
Silaha sarılıb hər kəslə birgə,
Dünyanı düşmənə eyləyəydim dar.

Bəzisi bəlkə də belə deyəcək:
Vətən nə deməkdir, nə bilirsən sən.
Heç kimə bir faydan toxunmayıbdır,
"Ver yeyim, ört yatım" söyləmisən sən.

Artıq yaşıdlarım xidmətə gedir,
Bəs niyə oturub mən evdə qaldım?
Düşündüm, necə də xoşbəxtdir onlar,
Doğrusu, onlara həsəd apardım.

Allahım, sən məni xar etmə heç vaxt,
Qoy heç kəs sözümü yalan sanmasın.
Sən özün dərdimə bir əlac eylə,
Arzular qəlbimdə yatıb qalmasın.

Unutma

Həyat imtahandır, suallar çətin,
Gərək dərslərini unutmayasan.
Şirinliyinə uyub varın-dövlətin,
Nəyə lazım sonra peşman olasan.

Hər zaman işində ədalətli ol!
Qoyma məlun şeytan girə qəlbinə.
Qarnını halalca nemətlə doyur,
Qəti haram tikə vurma dilinə.

Fəqirin malında gözün olmasın,
Özünün olana yiyələn ancaq.
Maldı, puldu, hamısı gəldi-gedərdi,
Bu dünyanın malı burda qalacaq.

Bəd əməllərinlə çox da öyünmə,
Bil ki, Allah səndən hesab soracaq.
Axirət gününü unutma heç vaxt,
Ən çətin imtahan orda olacaq.

Xalqıma xitab

Kim mənə hədiyyə vermək istəsə,
Dünyanın malından bir şey verməsin.
Könlümü şad etmək fikri varsa,
Dərdimi dinləyib əlac eyləsin.

Deyirlər:"Əl tutmaq Əlidən qalıb",
Sizə uzadıram mən də əlimi.
Allah xatirinə tutun əlimdən,
Boş qaytarmayın siz bu əllərimi.

Hər kim sevindirsə bir xəstə qəlbi,
Ziyarət etmişdir sanki Kəbəni.
Haqq yanında böyük savab qazanar,
Tanrı cənnət edər onun yerini.

Kaş ki, xalq eşidə mənim səsimi,
Əlindən gələni əsirgəməyə.
Diqqətlə oxuya bu sözlərimi,
Çün ehtiyacım var mənim köməyə.

Allah rəhmət eləsin!

Tahir Xudiyev və Tahir Axundov dostları, 5 saylı Şəhər Klinik Xəstəxanasının allerqoloq-həkimi İldırım Qasımova, bacısı, MSK-nın sədr müavini, görkəmli ictimai-siyasi xadim

Svetlana Qasımovanın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tahir Xudiyev dostu, 5 saylı Şəhər Klinik Xəstəxanasının qastroenterologiya şöbəsinin müdiri Elçin İsayevə, atası

Həmid kişinin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tahir Xudiyev və Tofiq Əliyev Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecimə, atası

Mövlud bəyin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tahir Xudiyev və Mənsur İbrahimli "Suqovuşan" qəzetinin redaktoru Pakizə Məmmədovaya, həyat yoldaşı

Tofiqin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin Redaksiya Heyəti və "Beynəlxalq Əlillər Cəmiyyəti" İB-nın İdarə Heyətinin üzvləri

Rafiq Əziz oğlu Əliyev
ADNA-nın Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, texnika elmləri doktoru, professor, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin idarə olunması Proqramının direktoru,
(yalnız "Əlillər Dünyası" müstəqil ictimai-siyasi qəzetinin Redaksiya Heyətinin üzvüdür)

Nisəxanım Məmməd qızı Mirişli
Ə.Əliyev adına ADHTİ Yoluxucu xəstəliklər kafedrasının müdiri, professor, tibb elmləri doktoru, Ekologiya və həyat fəaliyyəti təhlükəsizliyi elmləri Beynəlxalq Akademiyasının akademiki,

Qədir Cərkəz oğlu Rüstəmov
Respublikanın xalq artisti, "Şöhrət" ordenli, II qrup əlil,

Mir Müstəqil Mir Bağır oğlu Ağayev
AMEA-nın Fəlsəfə, Sosialogiya və Hüquq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru,

Akif Səməd oğlu Əliyev
ADPU-nun dosenti, filologiya elmləri namizədi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü,

Niyazi Məhəmməd oğlu Məmmədov
məcburi köçkün, I qrup ömürlük Qarabağ müharibəsi əlili,

Hüsaməddin Bərxudar oğlu Xudiyev
II qrup ömürlük Qarabağ müharibəsi əlili,

Mahir Əvəz oğlu Əzizov
II qrup Qarabağ müharibəsi əlili,

Fikrət Kamran oğlu Sirinov
əmək veteranı,

Fikrət Fərəc oğlu Babayev
I dərəcəli ömürlük əlil,

Məlahət İsfəndiyar qızı Abdullayeva
məktublar şöbəsinin müdiri,

Meybulla Nəbi oğlu Məcidov vəkil,

Cahid Sabir oğlu Qasımov
məcburi köçkün, Qarabağ müharibəsi veteranı,

"Əlillər Dünyası Qəzeti Redaksiyası" MMC-nin təsisçisi və direktoru
Tahir Xudiyev
Tel: (050) 363-99-09

Redaktor: Bəşir Mahmudov

Buraxılışa məhsul "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb səhifələnmiş və "Ekspress Servis" mətbəəsində çap olunmuşdur.
Müəllif və redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.

Şəhadətnamə № 0104-P6940826
"Texnikabank" KB-nin Nizami filialı
H/h: 38030001490001
Valyuta hesabı: 38130001490001
VÖEN: 1600089551
Tiraj: 5000
Sifariş: 255

E-mail:
elillerdunyasi@rambler.ru
a.r.bec@mail.ru
Ünvan: Ş. Mirzəyev - 34
Tel.-Faks: (012) 421-54-08